**Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №2 XƏBƏRLƏR • TRANSACTIONS • ИЗВЕСТИЯ 201**

**UOT: 39**

**ŞƏHLA NURUZADƏ (Bakı Slavyan Universiteti)**

# AZƏRBAYCANLILARIN ƏNƏNƏVİ GEYİMLƏRİNDƏ MİLLİ-MƏNƏVİ İRSİN ƏKSİ

**Açar sözlər:** milli-mənəvi dəyər, milli geyim, Avropa tipli geyimlər, sovet geyimləri

Azərbaycanlıların ənənəvi milli geyimləri xalqın dünyagörüşü, milli xarakteri, təbiəti, həyat tərzi, təsərrüfat həyatı, onun başqa xaqlarla tarixi əlaqələri və qarşılıqlı təsir məsələləri, sənətkarlığı, incəsənəti, cəmiyyətin ictimai qrupları arasındakı sosial-zümrə fərqləri və s. haqqında təsəvvür yaradır. Ənənəvi geyim mədəniyyəti, eyni zamanda azərbaycanlıların qonşu xalqlarla etnomədəni əlaqələrini izləməyə imkan verir. Geyimlərin tikilməsində istifadə olunan parçalar, bəzək əşyaları ölkə ərazisində sənətkarlığın, toxuculuğun tarixən inkişaf etdiyini, geniş ticarət əlaqələrinin olduğunu göstərir. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət nümunələri (daş və sümük bizlər, iynələr, sümükdən və gildən hazırlanmış əyirici alətlər, sümükdən dəri pardaxlayıcıları və s.) Eneolit və Tunc dövrlərində toxuculuq sənətinin inkişaf etdiyini göstərir [3,31]. Azərbaycanda tarixən yun, ipək, kətan, pambıq, gön, keçə və s. yerli xammalın istehsal olunması xalq geyimlərinin çeşidinin zənginliyinə, növ müxtəlifliyinə imkan yaratmışdır. Geyimlərdə xalq yaradıcılığının inkişaf tarixi, etnoqrafik və bədii xüsusiyyətləri öz əksini tapır. Ənənəvi xalq geyimləri və bəzəkləri maddi mədəniyyətin digər sahələri kimi, hər bir xalqın həyat və məişətinin ayrı-ayrı məsələlərini araşdırmaq üçün zəngin etnoqrafik materiallardır. Ənənəvi xalq geyim kompleksinin meydana gəlməsi uzun sürən tarixi inkişaf prosesinin nəticəsidir. XIX əsr və XX əsrin əvvəllərində azərbaycanlıların geyim mədəniyyəti etnoqrafik bölgələr üzrə fərqlənmiş, məhəlli dəstləri və geyim dəbləri bir-birindən seçilmişdir. Geyim çeşidlərinin müxtəlifliyinə bölgələrin iqlim xüsusiyyətləri, eləcə də təbiətinin rəngarəngliyi də təsir etmişdir. Eyni zamanda, ənənəvi xalq geyimlərinin formlaşmasında islamın yayılması da mühüm rol oynamışdır. İslamın Azərbaycanda yayılması azərbaycanlıların milli-mənəvi dəyərlərinin formalaşmasında islam amilinin təsiri ilə xarakterikdir. Bu əsasən, qadınların geyimində örtülülüyə, çadra örtmələrinə üstünlük verilməsində özünü göstərdi. Eyni zamanda, istər kişi, istərsə də qadın və uşaq geyimləri cazibəliyi, gözəlliyi və lokal xarakteri ilə seçilirdi. Aleksandr Düma Bakı bazarını təsvir edərkən orada gördüklərini belə təsvir edir: “Bizə “Min bir gecə” nağıllarında təsvir olunan piyalələr göstərdilər. Mən hələ qadınlar üçün baş örtüklərini, yalnız cənnət gözəllərinin – hurilərin taxa biləcəyi bel kəmərlərini demirəm. Bütün bunlar sadə alətlərlə - çəkic, biz və qayçı ilə gözəl sənətkarlar tərəfindən düzəldilmişdi... burada gördüklərim nə qədər təzə və təkrarolunmazdır” [7,254]. XIX əsrdə azərbaycanlıların ənənəvi milli geyimləri tipoloji cəhətdən əvvəlki dövrlərin geyimlərindən o qədər də fərqlənmirdi. Xalq geyimlərini gündəlik geyimlər, mərasim geyimləri, müxtəlif sosial qrupların peşə mənsubiyyəti ilə əlaqədar geyimlər, toy və bayram geyimləri, gündəlik geyimlər, mövsümi xarakterli geyimlər, dini zürmələrə məxsus geyimlər və s. tiplərə təsnifləndirmək olar. Azərbaycanda çarşab əsasən

bəzi şəhər və şəhəryanı kəndlərin sakinləri üçün səciyyəvi idi. Evdən çıxarkən qadınlar başdan ayağa qədər çarşaba bürünürdü. Çarşab birrəngli atlas parçadan, dama-dama keci parçadan və müxtəlif çeşidli ipək parçalardan olurdu. Çarşab örtən qadınlar bəzən rübənddən də istifadə edirdilər. Azərbaycanın bölgələrində isə qadınlar çarşab örtməzdilər. Baş örtükləri kimi kəlağayı və müxtəlif şallardan (mövsümə uyğun) istifadə edərdilər. Azərbaycanlı qadınların gündəlik və bayram günləri üçün nəzərdə tutulmuş geyimləri olardı. Adətən, bayramlıq geyimlər toyda, əlamətdar günlərdə, bayramlarda, el şənliklərində



geyilərdi. Bundan fərqli olaraq, gündəlik geyimlər, ailə-məişət tərzindən, təsərrüfat məşğuliyyəti istimaqətindən və iqlim şəraitindən və s. amillərin fəal təsirindən asılı olaraq hazırlanırdı. Geyimlər ənənəvi olaraq “alt paltarları”, və “üst paltarları” olmaqla iki variantda mövcud olmuşdur. Qadın alt paltarları alt köynəyi, cütbalaq (enli şalvar) və darbalaqdan (dizlik) ibarət olmuşdur. Qadın alt köynəyi pambıq və ipək parçalardan, qadın üst köynəkləri adətən rəngli parçalardan (şilə, qədək, qanovuz və s.) tikilirdi. Alt köynəyi üst köynəyindən uzun, həm də gen biçilib-tikilir, hər iki yanında kəsik (“çapıq” və ya “peş”) qoyulur, qolları uzun olmaqla büzmə-manjetli (bilərzikli) olurdu. Kasıb qadınların alt köynəyi bəzəksiz olub, boğaz altında bir və ya iki ilgək-düymə ilə bağlanır, varlı qadınların isə alt köynəklərinin yaxa kəsiyi və qollarının ağızına bəzən başqa rəng parçadan köbə qoyulur, bəzən də rəngarəng bəzək elementləri salınır və qızıl düymə ilə düymələnirdi. Azərbaycanda qadın alt geyimləri kompleksinə daxil olan çaxçur, bir qayda olaraq, şəhər əhalisinin, xüsusilə də varlı və kübar ailələrin geyimi idi. Ayağı büzməli şalvarı xatırladan bu geyim növü Yaxın və Orta Şərq ölkələrində, Orta Asiya və Qafqaz xalqları arasında geniş yayılmış, Ön Asiya vasitəsilə Azərbaycana keçmişdir. Çaxçur geyim tipi Gəncədə, Naxçıvanda, Abşeronda və Şirvanda (Şamaxı, Basqal, Lahıc) daha çox istifadə olunurdu. Qadın üst geyim tiplərinin əsas elementlərindən birini üst köynəyi təşkil edirdi. O, kəsmə və tuniki biçim üsulunda tikilərək, qollarının ağzı bilərzikli və yelpazəli olurdu. Varlı qadınların üst köynəyi bahalı parçalardan (qanavoz, darayı, bursa, atlas, mov, xara), kasıb qadınların üst köynəyi isə pambıq, yun və kətan parçalardan (satin, fay, şal, çit) tikilirdi. Adətən, üst geyiminin qollarının ağzına (bilərziklərinə və ya məcələrinə) və yan çapıqlarına (peş) dekorativ bəzək elementləri (“sarıma bafta”, “hərəmi”, “qaragöz”) vurlurdu. Köynəyin qabaq ətəyinin üstü sikkələr - qızıl və gümüş pullar və müxtəlif bəzəklərlə (midaxil, pilək, zərənduzçaxma pilək və s.) bəzədilirdi. Köynək tikilərkən yaş fərqi ciddi nəzərə alınır, qız və gəlinlərin köynəkləri açıq rəngli parçalardan (qırmızı, sarı, çəhrayı, bənövşəyi, yaşıl və s.) yüksək zövqlə biçilib-tikilirdi. Qadınlar tünd (göy, palıdı və s.), yaşlı qadınlar isə qara rəngli parçalara üstünlük verirdilər. Qeyd etmək lazımdır ki, XX əsrin 90-cı illərinədək azərbaycanlı cavan qadınlar qara rəngli paltar geyinməz, əsasən acıq rəngli paltarlara üstünlük verərdilər. Köynəyin üstündən çəpkən adlanan üst geyimi geyilirdi. Erkən orta əsrlərdə “qaftan” adı ilə tanınan bu geyim növü biçim üsuluna və tipoloji xüsusiyyətinə görə, Azərbaycan qadın üst geyimlərinin əsasını təşkil edirdi [8, 135]. Çəpkənin yaxasının hər iki tərəfinə cərgə ilə qızıl və gümüşü pullar və on ədəd çilik tikilirdi. Yaxasına rus pulları, İran abassıları və şahıları bəndlənən belə çəpkənlər Qarabağda “pullu çəpkən” adı ilə geniş yayılmışdı. Bakı, Naxçıvan, Qarabağ,

Şamaxıda qadın geyim dəstində mühüm yer tutmuşdur. Qazaxda arxalıq əsasən, atlazdan tikildiyindən çox vaxt "atlaz arxalıq" adlandırılırdı. Tovuz mahalında arxalıq ən çox "məndulə" adlanan satınalma yun parçadan tikildiyi üçün həmin adla tanınırdı. Çəpkən Lənkəran və İrəvanda "nimtənə" sözündən təhrif olunmuş "mintənə" adı ilə bəlli olmuşdur. Qarabağda isə bu geyim növü əvvəllər olduğu kimi, XIX əsrdə də "nimtənə" adı ilə tanınırdı [5,135]. Azərbaycanda geniş yayılmış üst geyim elementlərindən biri də arxalıq olmuşdur. Bəzi



qadınlarının baharısı biçim etibarı ilə Bakı qadınlarına məxsus "don"u xatırladırdı [5,136]. Digər qadın üst geyimi çərkəzidir. Onun qolları dekorativ bəzək xarakteri daşıyırdı. Adətən, dirsəyə qədər düzdəmə biçilən qollar burada qoyulan çapığın köməyi ilə getdikcə enlənirdi. Varlı qadınlar bəzən çərkəzinin qollarının ağzına və yaxa kəsiyinin ətrafına tamam ayrı rəng parçadan lentvari qırçın da qoyurdular. İqtisadi imkanlardan asılı olaraq çərkəzi bahalı ipək parçlardan (atlas, məxmər, tafta, darayı) və ucuz pambıq parçalardan (çit, sətin, qədək, şilə) tikilirdi. Mövsümi səciyyəli qadın geyimlərindən digər tipini kürdü (eşmək) təşkil edirdi. Adətən, onu məxmər, ayulduz, bafta, tirmə və s. parçalardan tikir, bəzən də dəridən, xəzi içəriyə olmaqla hazırlayırdılar. Bu zaman kürdü astarlı tikilirdi. Azərbaycanda tünd sarı rəngli dəridən hazırlanmış və üzəri eyni rəng ipək sapla naxışlanmış Xorasan kürdüsünə böyük üstünlük verilirdi. Parçadan hazırlanan kürdülər isə yerli bazarlarda satılırdı. Adətən, qolsuz və yarımqol tikilən kürdünün (eşməyin) ətəyinə, peş (çapıq) yerinə, yaxa və qol kəsiklərinin ətrafına xəz qoyulurdu. Kürdü yarımqol tikildikdə eşmək adlanırdı. Qadın üst geyimləri arasında çəpkənlə tipoloji oxşarlıq təşkil edən, qolunun biçiminə və ətəyinin uzunluğuna görə ondan fəqlənən küləcə bayramlıq geyim dəstinin mühüm tərkib hissəsi olmuşdur. Onu varlılar xara, darayı, qanovuz, atlas, məxmər, tafta və s. parçadan, yoxsullar isə ucuz pambıq parçalardan astarlı tikirdilər. Yaxasına, bel kəsiyinə, ətəyinə və qollarının ağzına çox vaxt güləbətin, muncuq, pilək və məlilə ilə tikmə tikilirdi. Küləcənin digər bir variantı Azərbaycanın Gəncə-Qarabağ, Lənkəran-Astara, Bakı və digər bölgələrində "baharı" adı ilə məlum olan geyim tipi olmuşdur. Azərbaycanlı qadınların geyim kompazisiyasının mühüm elementini baş geyimləri təşkil edir. XIX-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının sosial-iqtisadi vəziyyətini əks etdirən xeyli baş geyim tipi var idi. Qadın baş geyimlərinə təsək (çəpçik), çutqu, araqçın, dingə, ikinci qrup baş geyimlərinə isə müxtəlif ölçülü və adlı ləçəklər, çalmalar, kəlağayılar, şallar, örpəklər, çadra, çarşab, duvaq və s. aid idi. Təsək (çəpçik) tipli qadın baş geyimləri XIX-XX əsrin əvvəllərində Azəbaycanın Gəncəbasar, Şirvan, Qarabağ, Şəki-Zaqatala və Qərb bölgələri üçün daha xarakterik idi. Təsək ağ və ya rəngli pambıq parçadan hazırlanırdı. Azərbaycan qadınlarının geniş istifadə etdiyi baş geyimini kəlağayı təşkil edir. Həm yerli kustar istehsala məxsus Gəncə, Şəki, Şamaxı, Basqal kəlağayılarından, həm də gətirilmə kəlağayılardan istifadə olunurdu. Mövsümdən asılı olaraq istifadə olunan qadın baş şalı (şəddə) kustar üsulla yerli karxanalarda toxunurdu. Kvadrat şəkilli toxunan şəddənin kənarları, adətən, saçaqlı olurdu. Onu soyuq havalardan evdən çıxarkən başa örtürdülər. XIX əsirdə şəhər mühitində yaşayan qadınların geyim dəstində çadra (çarşab) mühüm yer tuturdu. Evdən çıxarkən geyilən çadra bədəni topuğa qədər

bürüyürdü. Abşeron, Muğan, Talış və Naxçıvan bölgələrinin kəndləri istisna olmaqla, çadra kəndli məişəti üçün o qədər də xarakterik deyildi. Qadın çarşabının rənginə görə onun sahibinin yaşını, sosial-iqtisadi vəziyyətini müəyyənləşdirmək mümkün idi. Belə ki, cavan yaşlı qadınlar ağ (bəyaz) çarşaba, ayaşlı qadınlar isə tünd rəngli çarşaba üstünlük verirdilər. Hələ XV əsrin əvvəllərində Təbrizdə olmuş İspaniya elçisi Klavixo öz gündəliyində yazırdı ki, Təbriz dükanlarında satılan ətir və boyaları almaq üçün gənc qadınlar özləri gəlirlər. Onlar başdan-ayağa kimi ağ örtüyə bürünmüş şəkildə və gözlərini örtərək yeriyirlər [1,177-178]. XIX-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının ənənəvi ayaq geyimləri corab, badış, çarmıq, şətəl, çust, nəleyin, məst, lapçın (nafçıl), dabanlı uzunboğaz və yarımboğaz çəkmə, quşkeçən, kəlik və s.-dən ibarət olmuşdur. Qış aylarında ayaq geyimləri içərisində yundan toxunma corablar əsas yer tuturdu. Əhali arasında həndəsi, bitki və xalça ornamentləri olan corablar daha geniş yayılmışdı. Maldarlıqla məşğul olan əhalinin (həm qdınların, həm də kişilərin) istifadə etdiyi ənənəvi xalq geyimlərindən bir də badış idi. O, ayaq hissəsi olmayan corab kimi toxunur, topuqdan yuxarı və dizdən aşağı qatma ilə baldıra bağlanırdı. Həmin dövr üçün xarakterik qadın ayaq geyim növü başmaq idi. Arxası açıq, hündür dabanlı, pəncə üstü müxtəlif rəngli müşkü və tumacdan, altlığı isə aşılanmış göndən hazırlanırdı. Uc hissəsi yuxarı qatlanmış formada tikilən belə başmaqlar əlvan saplarla və qızılı simlərlə tikilirdi. Varlıların başmağının daban hissəsinə gümüşdən və ya qızıldan kəsilən lövhə



vurulur, naxışlarla bəzədilirdi. Başmağın pəncə üstü qalın parçadan (məxmərdən) tikildikdə, onun üzərini güləbətin tikmə ilə bəzəyirdilər. Naxçıvan və Qərb bölgələrində geniş istifadə olunan qadın ayaq geyimlərindən biri də "quşkeçən" idi. Onun dabanı hündür olduğuna görə, çox güman ki, belə adlandırılırdı. Naxçıvan quşkeçənləri zərif aşılanmış dəridən üzlənir, üstünə muncuq düzülür, qatma (qaytan) ilə bağlanır, burun hissəsi enli olurdu. Adətən, quşkeçən ayaqqabıları nişanlı qızlara bayram və toy hədiyyəsi kimi aparırdılar. Ev şəraitində geyilən ayaqqabılar içərisində nisbətən yumşaq dəridən hazırlanan "məst" yüngül geyim növü olub, başlıca olaraq qara, qırmızı, tünd göy, yaşıl rəngli safyandan və tumacdan dabansız tikilirdi. "Çust" isə həm şəhər həm də kənd qadınlarının başmağa nisbətən üstünlük verdikləri ayaq geyimi idi. Onun altı aşılanmış göndən, üstü isə müşkü və tumacdan hazırlanırdı. Çust, bəhs olunan dövrdə həm qadın, həm də kişi ayaq geyimi olmuşdur. XIX əsrin sonu- XX əsrin əvvəllərindən başlayaraq fabrik istehsalı mallarının xalq məişətinə kütləvi sürətdə daxil olması, Rusiya və digər Şərq ölkələri ilə ticarət əlaqələrinin genişlənməsi əhalinin ayaq geyimlərində tufli, səndəl, qaloş və b. geyim növlərinin üstün yer tutmasını zəruri etmişdir. XIX-XX əsrin əvvəllərində azərbaycanlıların ənənəvi kişi geyimləri biçim üsuluna və tikiş texnikasına görə Ümumqafqaz xarakteri daşıyırdı. Ənənəvi kişi geyimləri də qadın geyimləri kimi, alt (can) və üst geyimlərindən, eləcə də müxtəlif formalı baş və ayaq geyimlərindən ibarət idi. XIX əsrin 80-ci illərində Qazax qəzası Salahlı kənd əhalisinin kişi geyimlərindən bəhs edən B.Veniaminov yazırdı ki, onlar çit və ağdan tikilmiş köynək, ipək və onun üstündən tikilmiş yun arxalıq (kəmər və xəncərlə birlikdə), yun və ya mahud çuxa, yun başlıq və mahuddan tikilmiş şalvar, qoyun dərisindən papaq, başmaq, kürk və yapıncı geyirlər. Kişilərin bayramlıq paltarları qiymətli parçalardan tikilirdi. Gündəlik kişi geyimləri nisbətən sadə

olurdu [2,143]. Ənənəvi kişi alt paltarı alt köynəyi ilə dizlikdən (kişi tumanı) ibarət idi. Kişi alt köynəyinin “düzyaxa” forması dəbdə olmuşdur. Adından məlum olduğu kimi, düzyaxa köynəyin yaxası düzbiçimli olurdu. Yeniyetmələrin və nişanlı oğlanların alt köynəyinin boyunluğu və yaxa kəsimi müxtəlif motivli tikmə naxışlarla bəzədilirdi. Kişi alt paltarının digər bir elementi də dizlik idi. Onu midqal, bez, çit, batist və s. parçalardan tikirdilər. Biçim üsuluna görə şalvara bənzəsə də şalvardan fərqli olaraq dizlik bədəni dizə qədər kip tuturdu. Dizlik belə nifədən keçirilən tuman bağı ilə bərkidilirdi. Kişi üst geyimləri üst köynəyi, arxalıq, çuxa və şalvardan ibarət olurdu. Şalvarı yoxsullar yer hanasında toxunmuş “qılıcı şal”dan, Şirvan şalından (Zarat şalı, Əlvənd şalı), satınalma ləzgi şalından; varlılar isə mahuddan, məndulədən və yekrəng ipək parçalardan tikirdilər. Özünün biçim üsuluna və tikiş texnikasına görə dizlikə eyniyyət təşkil edən şalvar ondan uzun (topuğa qədər) və nisbətən enli olması ilə fərqlənirdi. Əsasən, şalvarın balağı geyilən ayaqqabının növündən asılı olaraq və ya ayaqqabının boğazlığına salınır, ya da onun üstündə qalırdı. Zümrə mənsubiyyəti və peşə yönümü müxtəlif olan əhali arasında şalvar balağının hansı şəkildə qalmağında fərqli xüsusiyyətlər vardı. Məsələn, maldarlıq və qismən də əkinçiliklə məşğul olan kəndlilər şalvarın balağını corab içinə salır və üstündən dolaq çəkirdilər. Xüsusilə də çobanlar dolağı dizə qədər dolayırdılar. Misgər, qabbağ, dəmirçi, dülgər, həllac, şarbaf, bafayçı, çərçi, bəzzaz, tacir, çarvadar, habelə ziyalı və ruhani şəxslər şalvarın balağını açıq qoyurdular. Bu halda ayağa başmaq geyilirdi. Əsilzadə dövlətli şəxslər uzunboğaz çəkmə geydiklərindən, şalvarın balağını çəkmənin içinə salırdılar. Varlı gənclər əksər hallarda yaşıl rəngli ipək parçadan şalvar geyərdilər. Başmaq geyən gənclərin şalvarının balağı çox vaxt bafta ilə tikilirdi. XIX əsrin sonu və XX əsrin əvvəllərindən etibarən şəhər qadınları arasında “qondara”, “dikdaban”, “quşkeçməz” və s. adlarla tanınan satınalma tufli dəb idi. Bununla əlaqədar olaraq, ənənəvi ayaq geyimləri - başmaq və nəleyin sıxışdırılıb məişətdən çıxarılmağa başlamışdır [5,142]. Həmin dövrdə Aropasayağı “qalife şalvar”lar da dəbdə idi. Özünün biçim üsuluna və tikiş texnikasına görə kişi alt və üst geyim növləri bir-birindən fərqlənməsə də, rəng əlvanlığına, parçalara, bəzək çeşidlərinə, boyunduruqlu və bilərzikli tikilməsinə görə üst köynəyi fərqli xüsusiyyətlər daşıyırdı. Xüsusilə evlənməyə hazırlaşan gənclərin bəylik köynəkləri zövqlə və yüksək diqqətlə biçilib tikilir, boyunluğu, yaxalığı, bilərziyi baftaya tutulurdu. Nazik və zərif ipək parçalardan tikilən nifəli



şalvarın ətəyi köynəyin içinə salınır, qalın parçalardan tikilən köynəyin ətəyi isə şalvarın üstündə azad buraxılır, beli qayışla bağlanırdı. Ənənəvi kişi geyim kompleksinin təkib hissələrindən biri də arxalıq idi. Arxalıq beldən kəsik və bədənə kip biçilirdi. Ətəyi qırçın və ya büzməli, qolları düz olub bilək hissəyə doğru daralırdı. Arxalıqlar bir, yaxud iki döşlü, kiçik boyunduruqlu və boğaza qədər düyməli olurdu. Arxalıqları atlasdan, nazik mahuddan, sətindən, lastikdən və s. parçalardan tikirdilər. Arxalığın üstündən cavanlar qayış və ya kəmər, yaşlı və qoca kişilər isə qurşaq bağlayırdılar. Azərbaycanın Abşeron etnoqrafik bölgəsində “don” adlandırılan arxalıq eyni adla, bəzən də “beşmet”, “zepun” adı ilə Şərqi Avropada, Volqaboyu, Qafqaz, Sibir tatarları, Ön və Orta Asiya xalqları arasında da geniş yayılmışdır [2,25]. Kişi geyim dəsti içərisində üst geyim növü kimi çauxa mühüm yer tuturdu. Biçim

üsuluna görə, Ümumqafqaz səciyyəli olan çuxalar birbirindən yalnız müəyyən lokal xüsusiyyətlərinə və adlarına görə fərqlənirdi. Mövsümi səciyyəli kişi geyimləri arasında bir neçə aşılı qoyun dərsindən tikilən kürk də əhəmiyyətili yer tuturdu. Əsasən maldar əhalinin üst qış geyimi qoyun dərisindən tikilən yaxası düyməli kürk hesab olunurdu. Geyim növü olan kürk aşılanmış qoyun dərisindən kustar üsulla hazırlanır, üzərində heç bir bəzək-naxış elementi olmurdu. Xorasan kürkünün üzəri ipək sapla naxışlanırdı. Dağlıq yerlərdə çobanlar qışda yapıncıya bürünürdü. Maldar əhali arasında üst geyim növü olan yapıncı da geniş istifadə olunurdu. Ümumqafqaz səciyyəli bu geyim növü haqqında A.S.Piralov yazırdı ki, qafqazlı kişi geyimlərinin üst növü olan yapıncı onun at belində keçirdiyi bütün həyatının yol yoldaşı idi. Qafqazlı kişini yapıncısız təsəvvür etmək olmazdı [8,20]. Növündən və keyfiyyətindən asılı olaraq yapıncı müxətlif sosial zümrələr tərəfindən geyilirdi. Adətən, ağ və qara rəngli knyazı (saçaqlı) yapıncıları bəy-mülkədar və qolçomaq zümrəsi, qabardını (saçaqsız) yapıncıları sərkar və kəlladarlar, qartını isə çobanlar geyirdilər. XX əsrin 80-90-cı illərinədək Azərbaycanda çobanlar yapıncı geyinirdilər. Təsrüfat və peşə məşğuliyyətindən asılı olaraq bir sıra geyim elementləri də mövcud olmuşdur. Belə ki, sənətkarlar və tacirlər parçadan, eləcə də dəridən hazırlanan önlük və döşlüklərdən, biçinçilər qolçaqdan və taxtadan (bəzən göndən) hazırlanan barmaqçalıqdan, arıçılar qabağı torlu xüsusi papaqdan və s. geyimlərdən istifadə edirdilər. Bakı şəhərində qoçuların geyimi xüsusilə fərqlənirdi. Bakı qoçuları həmişə səliqə ilə geyinərdilər. Əyinlərində atlas köynək, yaxud ağ kraxmallı köynək, zərbaftadan jilet, üstündən bahalı parçadan don və ya kostyum olardı. Başlarına drabi papaq qoyar, ayaqlarında uzunboğaz çəkmə və ya yanları rezinli şiblit olardı. Yanlarında da həmişə mauzer gəzdirərdilər. İkinci qrup qoçular isə daha çox icraçı idilər. Bunlar adlı-sanlı qoçuların həndəvərində dolaşan buyruq qulları idilər. Başlarına çal papaq qoyar, ayaqlarına bir qayda olaraq, uzunboğaz çəkmə geyər, şalvarlarının balaqlarını da çəkmənin içinə salardılar. Bellərinə pencəyin altından gümüş belbağı bağlardılar. Bığları da həmişə yağlı və burumburum olardı [4,273]. Həmin dövrdə azərbaycanlıların xüsusi "yol paltarı" və "matəm libası" olmamışdır. "Matəm libası birrəng tünd parçalardan (qara, tünd göy, palıdı) hazırlanırdı. Ənənəvi kişi geyim kompleksinin mühüm elementlərindən biri də baş geyimlərdir. Azərbaycanda ənənəvi kişi baş geyimlərinin məhəlli-etnik xüsusiyyətlərinə, formasına, materialına, geymə tərzinə, dəyərinə və hətta rənginə görə fərqlənən çoxlu növləri olmuşdur. Ənənəvi baş geyimləri içərisində yerli qoyun dərilərindən hazırlanmış papaqlar xüsusi üstünlük təşkil edirdi. Lakin bununla belə, varlı şəxslər öz papaqlarını Krım və Orta Asiyadan gətirilmə qaragül dərisindən tikdirirdilər. Yerli əhali arasında bu dəridən tikilən papaq "Buxara papaq" adlanırdı. Xalq arasında papaq həmişə, şərəf, qeyrət və namus simvolu kimi dəyərləndirilmiş, ictimai yerlərdə, ailədə başıaçıq gəzmək qəbahət sayılmış, papağın itirilməsi və ya oğurlanması, təkcə şəxsin deyil, onun mənsub olduğu nəslin də təhqir edilməsi hesab olunmuşdur. Məsələn, Manaf Süleymanov 1918-ci ildə Bakıda baş verən hadisələrini təsvir edərək yazır: "Əynində qara mahuddan kostyum, başında buxara papaq, milyonçu Çolaq Ağabala xitabət kürsüsünə qalxdı, yoğun səslə qışqırdı: "Camaat, papağı başınıza nə üçün qoymusuz? İstisoyuq üçün, ya ki namus üçün! Millət əldən gedir" [6,135]. Kişi baş geyimlərinin bir növü də "başlıq" idi. Onu, adətən, soyuq havalarda uzaq səfərə çıxanlar və dağ şəaritində yaşayanlar papağın

üstündən geyirdilər. Başlıq, əsasən sıx toxunuşlu yun parçadan (şaldan), mahuddan, ən qiymətlisi isə dəvə yunundan hazırlanırdı. Başlığın qulaqcıqları uzun olduğundan geyinən zaman onları boğaza dolayıb, düyünləyib arxaya (kürəyə) atırdılar. Başlıq təkcə Azərbaycan üçün deyil, Qafqaz xalqlarının bir çoxu üçün də səciyyəvi baş geyim növü olmuşdur. Araqçın (təsək və yaxud tərrik) papaq, çalma və əmmamənin altından geyilən kişi baş geyiminə aid idi. Araqçın saya və naxışlı olmaqla iki formada hazırlanırdı. Saya araqçınlar, bir qayda olaraq, altdan geyilir, bəzəkli araqçınlar isə sərbəst olaraq başa qoyulurdu. XIX-XX əsrin əvvəllərində Azərbaycanda din xadimlərinin (dərviş, seyid və s.) gündəlik geydikləri "külah" və "çəltari" də olmuşdur. Biçim üsulu və tikiş texnikası cəhətdən şəbkülahdan fərqlənməyən külahın bəzəkli naxışlarının arasına əski əlifba ilə "Əli" və başqa din xadimlərinin adları yazılardı. (2.160) Bəzən yaşlı kişilər yatan zaman başlarına "gecəlik" (gecə papağı) adlanan qalın tüklü papaq keçirirdilər. Yumşaq quzu dərisindən hazırlanan belə papaq çox da böyük olmayıb, əsasən astarsız olur, nadir hallarda içərisinə pambıq astar çəkilirdi. XIX əsrin sonu-XX əsrin əvvəllərindən başlayaraq xalqın geyim dəstinə rus ayaq geyimlərinin tədricən daxil olması həm kişi həm də qadın ayaq geyimi olan qaloşun kütləvi istehsalı çarıq, patava, dolaq, çust, başmaq, məst və s. kimi ayaq geyimlərini ciddi sürətdə sıxışdırıb məişətdən çıxarmağa nail olmuş, yüngüllüyü, yumşaqlığı, ucuz başa gəlməsi və təsərrüfat işlərində davamlılığı qaloşın indi də kənd əhalisi tərəfindən istifadə olunmasına imkan verir. Azərbaycanlıların ənənəvi geyim kompleksinin vacib elementlərindən birini kəmərlər təşkil edirdi. Qadın kəmərlərindən fərqli olaraq, kişi kəmər və qayış və təkbəndləri əməli əhəmiyyət daşıyırdı. Bir qayda olaraq, kəmərdən xəncər asılır, içərisinə tütün, çaxmaq, çaxmaqqov və s. qoyulan dəri və parçadan tikilən kiçik torbalar bənd edilirdi. Ənənəvi geyimləri müxtəlif bəzək əşyaları tamamlayırdı. Qadınlar zinət əşyalarından – qızıl üzük, tənə, boyunbağı, bilərzik, bazubənd, mirvari, enli gümüş kəmər, müxtəlif muncuqlar və s.-dən istifadə edirdilər. Bəzək məmulatı qiymətli qaş-daş - brilliant, zümrüd, yaqut, mirvari, firuzə, əqiq və s. istifadə olunurdu. Azərbaycanın zərgərlik məmulatı mərkəzləri Bakı, Gəncə, Şamaxı, Şəki, Naxçıvan, Şuşa şəhərləri idi. Yerli zərgərlər əhaliyə lazım olan hər cür zərgərlik məmulatı hazırlayırdı. Dağıstanın Kubaçi zərgərlərinin istehsal etdikləri gümüşdən qayrılmış qadın və kişi kəmərləri də Azərbaycanda böyük şöhrət tapmışdı. Azərbaycan qadınları bəzəkləri çox sevir, onlardan geniş və bacarıqla istifadə edirdilər. Qadınların istifadə etdikləri bəzək şeylərinin dəstinə imarət deyirdilər. Bura müxtəlif çeşidli baş və döş bəzəkləri, üzüklər, sırğalar, kəmər, bazubənd və bilərziklər daxildir. Azərbaycanlıların milli mədəniyyətinə təsir edən növbəti hadisə 1813-cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycan ərazilərinin İran və Rusiya arasında bölünməsi oldu. XIX əsrdə Azərbaycanda kapitalizmin sürətlə inkişafı, bununla da yeni zümrələrin burjuaziya və proletariatın ortaya çıxması prosesləri də geyim mədəniyyətinə öz təsirini göstərmişdir. Lakin Avropa tipli yeni geyim uzun müddət ənənəvi milli geyim tipi ilə yanaşı dəbdə oldu, onu tam sıxışdırıb çıxara bilmədi. Yeni tipli geyim əsasən, şəhərlərdə burjuaziya, ziyalılar və yüksək ranqlı tacirlər arasında yayılırdı, sadə əhali isə ənənəvi geyimə üstünlük verirdi. Qeyd etmək lazımdır ki, həmin zümrələr Avropa tipli geyimlər geysələr də, onların geyimlərində milli kolorit özünü göstərirdi. Məsələn, yüksək ranqlı tacirlər müasir tipli Avropa kostyumları geyinsələr də, milli

papaqlara üstünlük verirdilər. Kəndlərdə isə, əhali əsasən ənənəvi geyim tipinə üstünlük verirdi. Azərbaycanlı ziyalıların geyim mədəniyyətinə Çar Rusiyasının da təsiri olmuşdur. Azərbaycanda rus-tatar məktəblərinin açılması ilə yeni düşüncə tərzli milli ziyalılar formalaşmağa başladı. Azərbaycanda ilk rus-tatar (rus-azərbaycanlı) məktəbi 1887-ci ildə Sultanməcid Qənizadə və Həbib bəy Mahmudbəyov tərəfindən açılmışdır. Sözsüz ki, bu məktəblər onların geyim tərzinə də təsir etmişdi. 1901-ci ildə Bakıda Azərbaycan xalqının görkəmli xadimi H.Z.Tağıyevin hesabına "Bakı rus-müsəlman qadın məktəbi"nin açılması həmin məktəbdə təhsil alan müsəlman qızlarının geyim mədəniyyətinə təsir etdi. Bakı müsəlman qız məktəbinin şagirdləri üçün Dağıstan qızlarının geyimi rəsmi libas kimi qəbul edilmişdi. Həmin geyim 1909- cu ildən rus qız məktəblərinin rəsmi paltarı ilə əvəz edildi - abı rəngli parçadan don, ağ önlük,



pelerina, gündəlik geyimdən başqa bayram və mərasim libası da var idi. İmtahan vaxtı, bayram günləri, teatr və gəzməyə gedəndə mərasim libasını geyirdilər [6,66]. Lakin, qeyd etmək lazımdır ki, həmin qızların, qadınların geyimlərində bir o qədər də açıqlıq olmurdu, qızlar məktəbdən kənarda başlarına kəlağayı örtürdülər. "Cəmiyyəti xeyriyyə"nin oğlanlar üçün açdığı "Səadət" məktəbinin şagirdləri birinci sinifdən kitel geyərdilər. Düymələri sarı, hər qolda bir düymə, bir də mavi zolaq, papağın ortasında nişan, üstündə isə məktəbin adı yazılardı. İranlıların açdıqları "Təməddün", "İttihad" məktəblərinin şagirdləri dik, yaşıl boyunluqlu, qollarında yaşıl zolaq olan mahud kitel və eyni parçadan şalvar geyərdilər. Qışda dəri papaq, başqa vaxtlarda isə drabi (karton üstünə parça çəkilmiş papaq) papaq qoyardılar, papaqlarının qabaq tərəfində günəş və şir nişanı və "mədrəseyi ittihad" sözləri həkk edilmiş metal gerb olardı. Gimnaziya şagirdləri dördüncü sinfə qədər boz rəngdə mahuddan şalvar, gümüşü düymələri olan kitel geyərdilər. Beşinci sinifdən isə, iri gümüşü düymələri, qollarında iki balaca düymə olan yaxalı pencək geyinər, başlarına isə qabağında gümüşü gerb olan ağ zolaqlı mahud şapka qoyardılar. Axırıncı sinifdə qara kostyum, ağ köynək geyməyə və qara qalstuk bağlamağa icazə verilirdi. "Realnı" məktəbin geyim forması dördüncü sinfə qədər qara mahuddan şalvar və düymələri qızılı gimnastyorka, beşinci sinifdən mahuddan qara şalvar, qollarında iki qızılı rəngli düymə olan qara kitel, qabaq tərəfdə gerb olan sarı zolaqlı qara şapka qoyardılar [6, 101-102]. XIX əsrin sonu-XX əsrin əvvəllərində azərbaycanlı ziyalıların geyim tipinə eyni zamanda Türkiyə ziyalılarının da təsiri olmuşdur. Sovet hakimiyyətinin ilk illərindən ənənəvi geyim "gerilik" əlaməti, "burjua" geyimi kimi tənqid olunmağa başladı. Digər tərəfdən də istehsalatın xüsusiyyətləri geyimin, xüsusilə də, şəhər geyiminin dəyişməsini tələb edirdi. Sovet insanlarının geyimi 1920-ci il aprel çevrilişindən əvvəlki geyimə nisbətən daha sadə oldu. Zadəganlar və burjuaziya sinfini devirib proletar və kəndli sinfinin şurasını yaradan sovet hökumətinin ideologiyası sovet modasının formalaşmasına da təsir etdi. Sovet adamı dəbdəbəli geyim geyməməli idi və yeni cəmiyyətin qurucusuna müvafiq geyməli idi. Lakin "sosializmin qurucusu" olan sovet adamının necə görünməli olmasını əslində heç kim bilmirdi. Sovet Rusiyasının inqilabi modasının simvolu çekist və komissar obrazını assoiasiya edən dəri gödəkçələr oldu. Sözsüz ki, Sovet Rusiyasında baş verən bütün proseslər digər sovet respublikalarında, eləcə də Azərbaycanda

tətbiq edilirdi. Əsasən şəhərlərdə bolşevik kişi və qadınlar dəridən komissar gödəkçələri və beli dəri qayışla bağlanan əsgər gimnastörkaları geyinirdilər. Zəhmətkeş sovet qadınının geyimi standar və sadə olmalı idi. Kollektivçilik təbliğ olunan ölkədə fərdiliyə icazə verilə bilməzdi. Həmin dövr üçün xarakterik olan geyimin əsas əlamətlərindən biri qırmızı rəngli yaylıq – azad olmuş qadın simvolu oldu. 1940-1950-ci illərdə bütün Sovet İttifaqında əhali Avropa tipli geyimlər geyinməyə başladılar. Bu tendensiya hazırki dövrədək davam edir. Müasir dövrdə ənənəvi xalq geyimi artıq folklor nümunəsinə çevrilmişdir. Eyni zamanda, müxtəlif xalq bayramlarının, əsasən də Novruz bayramının qeyd olunması zamanı folklor qrupları tərəfindən milli geyimlər nümayiş etdirilir. Azərbaycanlıların ənənəvi qadın baş örtüyü olan kəlağayının 2014-cü ildə YUNESCO-nin Qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilməsi dövlətin və xalqın milli geyimlərə verdiyi dəyərin göstəricisidir. Milli geyimlər xalqın tarixən formlaşmış mədəniyyətini, həyat tərzini, dünyagörüşünün, təsərrüfat həyatını özündə əks etdirir. Müasir insanlar artıq milli geyimlərdən istifadə etməsələr də, xalqın tarixini əks etdirdiyindən onun üçün dəyərlidir və onun milli-mənəvi irsinin vacib elementini təşkil edir.

**İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1989, 328 s. 2. Azərbaycan etnoqrafiyası.Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 384 səh. 3. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: Elm nəşriyyatı, 1981, s. 51. 4. Qılman İ. Bakı və bakılılar (Üçüncü nəşri). Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006, 384 səh. 5. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında



tipoloji tədqiqat). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, 420 səh. 6. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: Azərnəşr, 1987. 320 s. 7. Дюма А. Кавказ. Тибилиси: "Мерани", 1988. 647 с. 8. Пиралов А. Краткий очерк кустарных промыслов Кавказа. Тифлис, 1900. 50 с.

## SUMMARY

**Shahla Nurizade**

**Reflection of national-spiritual heritage in traditional clothes of azerbaijanis**

**Key words**: spiritual national values, national clothing, European style clothing, fashion in Soviet Union Traditional clothing of Azerbaijanis, reflect their outlook, national personality, living standard, customs, economic activity, relationships with all other nations. The author of the article provides description of traditional clothing of Azerbaijanis. Nation's traditional costumes and jewelry, including other tangible cultural spheres are rich source of ethnographic material for research of diverse issues concerning the welfare. The article reveals the factors affecting toward formation of traditional clothing of Azerbaijanis. Moreover, there is simultaneously analyzed the phase of transformation of traditional

costumes of Azerbaijanis into the modern style clothing. Rapid development of capitalism in Azerbaijan in the 19th century resulted in the emergence of the new strata - the proletariat and the bourgeoisie which had impacted on the culture of clothing. With opening of Russian and Tatar schools in Azerbaijan was launched the formation of new individualistically thinking national intelligentsia. Furthermore, establishment of Soviet Union in Azerbaijan resulted in major changes in the sphere of national clothing. Notwithstanding, modern people do not wear national costumes, but this tradition has great value and importance with its specific element of spiritual national heritage reflecting nation's long history.

## РЕЗЮМЕ

**Шахла Нурузаде**

**Отражение национально-духовного наследия в традиционной одежде азербайджанцев**

**Ключевые слова:** духовные национальные ценности, национальная одежда, одежда европейского типа, одежда советского периода Традиционная одежда азербайджанцев отражает мировоззрение, национальный характер, нравы, образ жизни, хозяйственной деятельности народа, его взаимоотношения с другими народами. Автор дает описание традиционной одежды азербайджанцев. Традиционная народная одежда и украшения, как и другие сферы материальной культуры, является богатым этнографическим материалом для исследования различных проблем его жизни и быта. В статье указываются факторы, влиявшие на формирование традиционной одежды азербайджанцев. Одновременно анализируются этапы трансформации традиционной одежды азербайджанцев в одежду современного типа. Бурное развитие капитализма в Азербайджане в XIX веке и возникновение в результате этого новых слоев – буржуазии и пролетариата – оказали свое влияние на культуру одеяния. С открытием в Азербайджане русско-татарских школ началось становление по-новому мыслящей национальной интеллигенции. Установление советской власти в Азербайджане стало основным этапом изменений в национальной одежде. Хотя современные люди и не носят национальную одежду, она имеет для них большую ценность и является важным элементом духовного национального наследия, поскольку отражает историю народа.